# Ermənistanın hərəkətləri milli azlıqların hüquqları üzrə beynəlxalq normalara ziddir

Qərbi Azərbaycan İcması insan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq qurumların fəaliyyətində yaxından iştirak edərək, Ermənistandan qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətli şəkildə geri qayıtması hüququ məsələsini qaldırır və bu istiqamətdə beynəlxalq dəstəyin əldə edilməsi üçün səylər göstərir.

Sözügedən sahədə müvafiq mexanizmlərdən biri ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığıdır. İcmanın İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarı institutunun növbəti tədbirində iştirak edib. Qurumun təsis edilməsinin 30 illiyi münasibətilə oktyabrın 24-də Niderlandın Haaqa şəhərində keçirilən tədbirdə ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani, qurumun baş katibi Helqa Şmid, Milli Azlıqlar üzrə Ali Komissar Kayrat Abdraxmanov, BMT Katibinin insan hüquqları üzrə köməkçisi İlze Brands Kehris və digər yüksəksəviyyəli şəxslər iştirak ediblər.

Toplantıda ATƏT məkanında milli azlıqların hüquqlarının qorunması sahəsində vəziyyət, bu sahədə iştirakçı dövlətlərin öz öhdəliklərini və ATƏT-in tövsiyələrini yerinə yetirməsi və milli azlıqların hüquqlarının qorunması ilə sülh və təhlükəsizlik arasında əlaqə kimi mövzularda müzakirələr aparılıb.

Müzakirələrdə iştirak edən Qərbi Azərbaycan İcmasının sədr müavini R.Həsən Ermənistandan azərbaycanlıların qovulması barədə ətraflı məlumat verib, Ermənistanın hərəkətlərinin beynəlxalq insan hüquqlarının digər aspektləri ilə yanaşı, milli azlıqların hüquqları üzrə beynəlxalq normalara, o cümlədən, ATƏT-in bu sahədəki müvafiq sənədlərinə zidd olduğunu vurğulayıb.

İcma özünün insan hüquqları gündəliyinin və qayıdış hüququnun beynəlxalq səviyyədə təşviqi üçün ATƏT və digər beynəlxalq təşkilatların müvafiq fəaliyyətlərində iştirakını davam etdirəcək.

Azərbaycan.-2023.- 25 oktyabr, № 232.- S.10.